# TƏSƏVVÜF ƏDƏBİYYATINDA İNSAN VƏ EKOSİSTEM

**Nəzakət Məmmədli**

*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Bakı*
*ulya98@yahoo.com.tr*

Təsəvvüfdə insani-kamil anlayışı fəlsəfə tarixində kökləri çox qədimlərə gedən "kiçik aləm" (mikrokosm) və "böyük aləm" (makrokosm) düşüncəsi ilə bağlıdır. Qədim mədəniyyətlərdə bu aləmlər arasında qarşılıqlı əlaqə olduğuna, birində var olan xüsusiyyətlərin ən azı bir qisminin digərində də mövcudluğuna inanılmışdır. Alma toxumu alma ağacına bənzəməsə də, onda ağacdakı bütün maddələrdən az miqdarda mövcuddur. Bu baxımdan da insanda mövcud olan bütün xüsusiyyətlər əslində Yaradanın təzahürlərindən ibarətdir.

Təsəvvüfdə insan onu əhatə edən təbiətin bir parçası olaraq götürülür. Təbiətə, havaya, suya, torpağa, ağaclara, çiçəklərə, quşlara, heyvanlara, dənizlərə, dağlara məsuliyyət hissi ilə yanaşmaq islam və təsəvvüf əxlaqının əsas şərtlərindəndir. Sədinin "Bütün insanlar bir-birinin üzvləridir", "Yaşıl ağaçların yarpaqları mərifət əhlinin nəzərində Yaradanın varlığına sübutdur" beytləri, Mövlananın "Məsnəvi" əsərində Məcnunun üfunət qoxuyan ölmüş itin dişlərinin gözəlliyini vurğulaması və s. fikirlər təsəvvüfdə ətraf aləmə kompleks şəkildə yanaşmanın, insanı vahid ekosistemin bir zərrəsi kimi görmənin təzahürüdür.

Nizami də "Sirlər xəzinəsi"ndə "Süleyman və qoca əkinçi" hekayəsində həmin mətləbləri ifadə edir: Süleyman şah daşlı-kəsəkli, susuz səhraya toxum səpən bir qocaya rast gəlir, onu məzəmmət edir. Lakin qoca cavab verir ki, inamla, xoş niyyətlə əkilən toxum göyərib bəhər verər. Nizami də irfan və mərifət toxumunu onun göyərməyi üçün əlverişsiz, qeyri-münbit torpağa səpir. Ümidlə, inamla. Kim bilir, bu toxumların, bəlkə, bircəciyi də olsa, cücərdi...

Bu əhvalat Şeyx Fəridəddin Əttarın "İlahinamə" əsərində "Hekayəte-Nuşirəvane-adel ba pire-bazyar" adlı hekayədə demək olar ki, eyni məzmunda verilir. Görünür ki, Əttar bu hekayəni Nizaminin təsiri ilə yazmışdır. Şairin təxəllüsünün də verilməsi bu fikri təsdiqləyir: Nuşirəvan at sürürdü ox kimi, sürətlə; Yolda beli yay kimi əyilmiş bir qoca gördü. O qoca bir neçə ağac əkirdi. Şah ona dedi: "Saçların süd kimi ağarmışdır. Bir neçə günlük ömrün qalmışdır. Niyə bura ağac əkirsən?" O ağsaqqal şaha dedi: "Dəlilin yetərlidir. İndiyə qədər gələnlər bizim üçün əkiblər, bəhrəsini yemişik. Biz də başqaları üçün əkirik. Hər kəs səy göstərməli, öz gücünə görə addım atmalıdır ki; Hər addımda bir nizam vardır.

Əttarın "İlahinamə" əsərində də bu mövzuda "Nuşirəvanla qoca bağban" adlı hekayə verilir: "Nuşirəvan bir gün yola düşüb atını ox kimi sürürdü. Yolda beli yay kimi bükülmüş qoca gördü. O qoca bir neçə meyvə ağacı əkirdi. Padşah dedi: "Bir neçə günlük ömrün qalıb. Niyə buraya ağac əkirsən?" Qoca dedi: "Bizdən əvvəl gələnlər əkib, yemişik. İndi də biz əkək ki, bizdən sonra gələnlər yesin. İnsan əlindən gəldiyi qədər yaxşı işlər görməlidir". Qocanın cavabı şahın xoşuna gəldi, ona bir ovuc qızıl verdi, o yeri, oradakı suyu da ona bağışladı".

Əttar bu hekayədən belə nəticə çıxarır: "Sənə də bu gün bir iş başlamaq gərəkdir. Bir işi bacarmadıqca meyvə əldə etməyin imkansızdır".

Əttara görə, insan dünyanın və özünün yaradılmasının hikmətini anlamağa çalışmalı, daim elm öyrənməlidir. Şairin insan orqanlarının səma cisimləri ilə əlaqəsini verməsi olduqca maraqlıdır: Qəlbin günəşdir, mədəni Ay bil; Zühəl dalağa işarə edir, onu nemət bil. Ciyər Müştəriyə uyğun gəlir; Ondan hərarətini artır.

Şair, beləliklə, bütün orqanların səma cisimləri ilə əlaqəsini, səma cisimlərinin təsirindən hansı orqanlarda xəstəliklərin əmələ gələ biləcəyini incə ayrıntılarına qədər təsvir edir. Bu da Əttarın "Xosrovnamə" əsərində qeyd etdiyi kimi, illərlə tibb oxuduğu və sənəti etibarilə anatomiya elminə bələd olduğunu bir daha təsdiq edir. Şair bir daha insana özünü tanımağı tövsiyə edir. Əgər insan özünü tanısa, öz şərəfli zatından xəbərdar olmağa çalışsa, o zaman heyvan kimi maddi ehtiyacların əsiri olmaz, ülvi duyğuları, ruhani hissləri heyvani instinktlərinə qalib gələr. İnsan dağıdan, xəyanət edən, pis işlər görən varlıq olmaz. Bütün yerin, göyün, kainatın onun üçün yarandığını bilməli, cılız hisslərlə yaşamamalıdır.

Mütəsəvviflər kainatdakı hər bir şeyin tək bir vücud olduğuna inandıqları üçün hər yaradılmışa böyük sevgi ilə yanaşırdılar. Əttarın fikrincə, insan heç bir məxluqu xor görməməli, bir qarışqanı belə incitməməlidir. Bu baxımdan təsəvvüf ədəbiyyatında dəvə, aslan, ceyran, tülkü kimi heyvanlar alleqorik

şəkildə insan xislətində olan müxtəlif xüsusiyyətləri, bəzən yaxşı, bəzən də bəyənilməyən mənfi cəhətləri özündə əks etdirirdi.

Təsəvvüf ədəbiyyatında ən çox "canlandırılan", alleqorik obraz kimi işlədilən heyvanlardan biri də itdir.

Əttarın "Təzkirətül-övliya", "İlahinamə", "Əsrarnamə" və s. əsərlərində itə aid bir çox ibrətamiz hekayələr verilir. Məsələn, "Cəndli pir və köpək" adlı hekayəyə diqqət yetirək: "Birisi cəndli mürşiddən soruşdu: "Sən daha ucasan, yoxsa it?" Müridləri sevimli mürşidlərinə verilən bu sualdan hiddətlənib yaxın gələrək onu parçalamaq istəyirlər. Pir onları sakitləşdirərək dedi: "İlahi təqdiri bilə bilmərəm ki? Əgər yolda oğrudan imanımı qoruya bilsəm, itdən üstün və uca olduğumu deyə bilərəm. Yox, əgər imanımı qoruya bilməsəm, onda kaş ki itin bir tükü ola bilsəydim deyərəm". İtə belə münasibət Həzrəti Əli əleyhissəlamın bir hekayəsindən qaynaqlanır:

"Şeyx Əbu Səidin bir sufi və bir köpəklə söhbəti" adlı hekayədə də buna bənzər bir əhvalat nəql edilir: "Bir sufi yol üstündəki bir köpəyi vurdu. Köpək Əbu Səidin yanına gəlib sufidən şikayət etdi. Əbu Səid sufiyə dedi: "Bu heyvana nədən cəfa edirsən?" Sufi dedi: "Günah köpəkdədir. Özünü paltarıma sürtdü. Artıq o paltarla namaz qıla bilmərəm". İt dedi: "Mən onun əynindəki sufi paltarını gördükdə: "Bundan mənə bir ziyan gəlməz", – deyə düşündüm. Bahalı paltarlar geymiş birini görsəydim, yanına belə yaxınlaşmazdım. Əynindəki sələmət libasını görüncə əmin oldum. Əgər ondan qisasımı almaq istəyirsənsə, əynindəki libasını soyundur". Bu hekayədə də Əttarın məqsədi əslində insanlara ətraf aləmə qarşı duyarlı olmağı, heç bir məxluqa yuxarıdan aşağı baxmamağı tövsiyə etməkdir: "Allah yolunda köpək belə bir məqama çatmışsa, sənin özünü köpəkdən üstün saymağın haramdır".

Əttarın "Məntiqüt-Teyr" əsərində Haqq yolunun yolçuları quş misalında təqdim olunur: "Quşlar Hüdhüdün başçılığı ilə səfərə çıxırlar. Yoldakı çətinliklər onları yorur, şübhə və etirazlar baş qaldırır. Bir qismi yorulub yolda qalır, kimisi yem axtararkən yolu azır, kimi aclıq və susuzluqdan məhv olur. Yüzlərlə quşdan otuz quş yoldakı məşəqqətlərə davam gətirir. Bu zaman Simurqdan bir məkub gəlir. Onlar bütün həyatlarının o kağızda yazılı olduğunu görüb heyrətə düşürlər. Bu zaman Simurq təcəlli edir. Quşlar Simurqa baxarkən özlərini görürlər. Sən demə, Simurq elə "se morğ" (otuz quş) imiş. Quşlar heyrət içində ikən Simurqdan səs gəlir: "Siz bura otuz quş gəldiniz, otuz quş göründünüz. Bundan daha artıq və ya az olsaydınız, nə fərqi vardı ki! Yenə o qədər görünərdiniz".

Quşlar artıq Simurqun varlığında əriyib itir, onun varlığıyla var olurlar. Bu məqamda artıq nə yolçu qalır, nə yol, nə də yol göstərən.

Mövlana insanın cəmad, nəbat, heyvan və insan şəklində dörd inkişaf mərhələsi keçdiyini qeyd edir və nəhayət, insandan insani-kamilə çevrilməyə səsləyir.

Vəhdəti-vücud fəlsəfəsinə əsaslanan mütəsəvviflər insanı yalnız ekosistemin bir parçası deyil, eyni zamanda onun bütövlüyünü, təmizliyini qorumağa məsul olan şərəfli bir varlıq, "Yaradanın xəlifəsi" olaraq görürdülər.